# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

# ƏMR

№ F-52

Bakı şəhəri "10" iyun 2019 il

**"Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 1209 nömrəli Sərəncamından irəli gələn tapşırıqların icrasına dair Tədbirlər Planı"nın təsdiq edilməsi barədə**

"Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 1209 nömrəli Sərəncamından irəli gələn tapşırıqların icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 1209 nömrəli Sərəncamından irəli gələn tapşırıqların icrasına dair Tədbirlər Planı" (bundan sonra –Tədbirlər Planı) təsdiq edilsin (əlavə olunur).
2. Bu Əmrin 1-ci bəndi ilə təsdiq edilmiş Tədbirlər Planında nəzərdə tutulan işlərlə bağlı yaradılan işçi qruplarının rəhbərlərinə tapşırılsın ki, vəzifələrin tam, vaxtında və mahiyyəti üzrə icrasını təmin etsin, zəruri hallarda tanınmış beynəlxalq məsləhətçi şirkətlərin cəlb olunmasına dair təkliflərini təqdim etsinlər.
3. Strateji proqramlar və islahatlar şöbəsinə tapşırılsın ki, işçi qruplarının fəaliyyətinin təşkili və əlaqələndirilməsi ilə bağlı zəruri tədbirlər görsün.
4. Daxili nəzarət şöbəsi bu Əmrdən irəli gələn tapşırıqların vaxtında icrasına nəzarəti təmin etsin.
5. Ümumi şöbə bu Əmrin surətinin nazirliyin aparatının struktur bölmələrinə və Enerji Məsələrini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.
6. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**